# ERMƏNİ KƏŞFİYYATÇISININ AZƏRBAYCANDAN ÇIRPIŞDIRDIQLARI

*(Əvvəli ötən sayımızda)*

Hamısı gözünü dikir telefonun ekranına.

Bir gün bir polis olur. Bu kimi tutsa, bircə manat alıb buraxır. Ona görə də kliçkası manatlıq polis olur. Bir dəfə avtovağzala girir. Bir tərəfdə kiminin əlinə nə keçsə satır. Biri kartof, biri kalkotta, biri soğan... Hə bu kimə yaxınlaşırsa, sakitcə cibinə manatı buraxıb canlarını və mallarını qurtarır. Bir limon satan arvada yaxınlaşır. O da boxçasını qurcalayana kimi polis dözmür. Limon torbasına bir yağlı təpik ilişdirir. Sarı limonlar xokkey topu kimi səpələnir. Qadın “dədəli” deyib qaçır. Polis də za nim. Qadın qaçıb girir VC-yə. Polis də qapıdan bir metr aralı dayanıb gözləyir. Qadın taxta qapının yarıqlarindan baxır ki, gedən deyil, əyilib qapının altından manatlığı palaz kimi uzadır irəli. Polis də əyilib götürür və “Hə indi gedib işini görə bilərsən...”

Bir gün də bir polisə evdə arvad tapşırır ki, evə bu gün 9 man. pul gətir. O da axşama qədər dolanır, əlinə bir şey keçmir. Evə gedəndə yolu avtovağzalın tualetinin qabağından düşür. Baxır, qapının üçü də bağlıdı. “Hə, demək 3 nəfər. Hərəsindən bir üçlük...” Birindən qəzet çırıltısı gəlir və adam çölə çıxanda polis :

-Ə,ə ay kişi, dayan görüm orda neynədin. (əcəb sözdü, burda neylələr!) O nə qəzet idi elə cırırdın.

-“Kommunist” qəzeti.

-Sən cərimə olunursan. 3 manat.

-Niyə, başına dönüm, neynədim ki. Ora girib çaxallar da. Bə ora nə üçündü?

- Ə, o qəzetdə, partiya yazılıb, kommunistlərin, dahi rəhbərin şəkli çəkilib? Sən onları... Sən onlarla... Ə, daha neynəyəcəksən, tez ol, yoxsa.

-Al, qardaş, başına dönüm.

Polis o biri qapıları marıtlayır. İçəridəkilərdən biri görür ki, iş fırıqdı. O da qəzetə əl atsa, ən azı “üşlüyündən” keçəcək. Canını dişinə tutub özünü divara yaxışdırır. Qapını açan kimi polis:- ə sən neynədin! Antisanitariya, antigigniya, anti ədəbsizlik...

-Polis başına dönüm, al bu da şirinliyi.

Polis bu “üçlüyü” də cibinə ötürüb üçüncü “sərnişini” gözləyir. O adam da yoldaşlarının başına gələni seyr edib qalır eləcə. Axırda polis dözə bilmir.

-Ə tez ol qurtar, işim-gücüm var.

-Polis qardaş, başına dönüm, pulum yoxdu, çıxa bilmərəm.

Ermənilərin qəhqəhi qonşu “düşmən” səngərinə qədər gedib çatır. “Ara bu lap qəmedidiki.”

-Ara bunnar.

- Yox ara, bunnar bunnar deyil. Bunnar sovetin milisidi.

-Vax ba bunnar, indikilar?

-Bunnara anektod qoşmullar.

-Bunnar na taradı ki?

-Bilmiram.

-Qorxullar?

-Bilmiram, balka da anektod baqajlarına artıq nöyüt dolub.

-Ama biri var.

-Naaa.

-Onnarın da arvadları başlayıblar bizim axçilar kimi.

-Haaaa?

-Yox ara, onnan dyul, adını tutma, qulağını kasallar. Hala onu qiruyullar.

-Ba na?

-Ciba girmağa.

-Ara bu onnarın işi, eli.

-Yox ara, arvaddarı.

-Na tari?

- Qulağ as: Bir milis hər gecə yatanda arvadı cibini süpürüb dəsmallayır. Bir gün-iki gün, bir gün milis arvadına deyir ki, sən gecələr cibimə əl gəzdirisəəən?

-Həə.

-Niyə?

-Çünki o pullar mənim hesabımadı.

-Bu nə təhər olur?

-Belə olur ki, sən kimin qulağını kəsirsənsə, o üzünə söyməsə də ya arxanca ya da ürəyində arvadını, yəni məni söyür. Hərdən -birdən, ana-bacını da ... o söz. Bu qazandıqlarının içində onların da payı var. Yolun düşəndə onlara da bir şeymir şey ver ki, halallıq olsun.

-Ara, demak qulağ kasannarın hamısı bu gunda. Onda vay yeka qulax kasanın halına. Onun payı lap yeka olar haa.

Beşincisi: Deyirlər ki, “N” hərbi hissəsində. (Hərbi hissə deyiləndə bütün erməni əsgər və zabitləri qahqahlara ara verdilər. Toparlanıb qulaqlarını şəklədilər). Yanı harbi hissanın baxçasında bir skamyanın cındırı çıxıbmış. Kamandir, onu kraskalatdırır. Sonra soldat oturub şalvarı batırmasın deyə (tupoydular axı, parıltılı qırmızı görən kimi ozlarını salacaxlar ustuna) o skamyanın yanına da bir asgar nobatçı qoydurur. İki saat sonra o asgarın smeni deyişir, sonra yena dayışır. O biri gun o skamyanın yanını da naryada salıllar. Iki saatdan bir smenini deyişiller. Bir gun-beş gun. Aylar keçir, illar keçir, neçe kamandir dəyişir, o smen o skamyada davam edir. Bir gün bir təzə kamandir gəlir. Bu o birilerden bir az bic olur. Hissəni alıb razvedka aparır. Baxır skamyanın yanına da naryad yazıllar. -Ara bu niya? Hamı çiynini çekir. Heç kim bilməz. Hamı deer ki, bizden qabax da belaydi. Biz də bela.

***(Davamı 13-cü səhifədə)***

# ERMƏNİ KƏŞFİYYATÇISININ AZƏRBAYCANDAN ÇIRPIŞDIRDIQLARI

*(Əvvəli 11-ci səhifədə)*

Kamandir duşunur, ara yoxsa, komuflyajdı. Orada çox gizli bir şey var. Başlayır tahqiqata, ama qorxa-qorxa, gizli-gizli.

“Birdan bir şey olar, deyallar sana ne? Na soxursan burnunu har şeya. Gizli harbi sirri deşifre edirsan”, -deya. Duz bir ay yuxu yatmır. Ştabın butun kağızlarını tökub oxuyur. Axırda alina bir kağız duşur. Duz 16 il qabax “kraskalanan skamya quruyana qadar ora asger qoyulsun” deya naçalnık ştabın elle yazdığı bir kağız.

Ermәni әsgәrlәrinin gözü çıxır kәllәlәrinә. Ordan kipriklerini qırpa-qırpa soruşullar:

-Ba sonra.

-Sonra bu ayıq bicbala kamandiri ela ordaca infakt vurur. Sonra da komsavat eliyiller.

-Yerine gelen tazasi?

-EE hamsı ağıllı olmaz ki.

-Yani?

-Yani o skamyada nobat davam edir. Esgerler de ora düşmak uçun kamandirlarini gorum-baxım eliyiller.

-Yox, ara, ozun gordun?

-Gordum. Orada oturub şekil çәkdirmәk de istadim, feyse qoyub gulardik. Amma kopoğlu soldat qoymadı. “Olmaz”, dedi.

Ermeni әsgәrlәrinin hamısı birdәn “vayılladı”...

Növbәti anektod: Ara bu lap ımpırtnıdı. Ama bunnan da sovetin qoxusu galir:

Bir gün bir çayın üstündә korpü tikirlәr.

-Arakas (Araz) çayının?

-Yox ara onnarda o dux hardaydı. Na bilim hansı çayın. Olsun Xaçın, ya da Hakeri. Qoy gorax na deyir.

Hә bu körpünü qorumaq üçün üstünә bir dәnә dә axran qoyurlar. Sonra baxırlar biri bәs elәmir. Buna bir smenşik lazımdır. Hәr gün, hәr gün... Birini dә tapıb ona smenşik qoyurlar. Sonra baxırlar ki iki nәfәr oldu. Deyirlәr, bunlar müdirsiz olmaz. Bir dәnә dә müdir ştatı açdırırlar. Baxırlar üç nәfәr oldu, deyirlәr, bunların yer-yurdunu bir tәmizlәyәn lazımdır. Bir dәnә süpürgәçi ştatı açırlar. Olur dörd nәfәr. Deyirlәr bu qәdәr adamın bir hәmkarları olmalıdı. Bir ştat da buna açırlar. Sonra deyirlәr bunların bir buxalteri, yәni mühasibi olmalıdı ki, maaşlarını hesablasın. Bir ştat da açırlar olur muhasib. Büdcәyә baş vuranda görürlәr bu qәdәr adama maaş vermәyә pul çatmır. Deyirlәr başqa yol yoxdu, ya gәrәk maaşları kәsәk, azaldaq, o da olmaz, ya da gәrәk әn az iki nәfәri ixtisar edәk. Çox vurub tuturlar. Görürlәr ki, nә müdiri, nә kәmkarı, nә buxalteri, nә dә onların süpürgәçisini ixtisar etmәk olmaz. Deyirlәr onda bu iki axranı azad edәk, vәssalam.

Söhbәt bura çatanda ermәnilәrin nitqi tutuldu. Nә gülә bildilәr, nә hırıldaya. Bir-birinә baxıb qaldılar. Gözlәrindәn bu oxunurdu ki, ara bunnara turk-murk deyirik ama belә şeyi nә gördük, nә eşitdik, nә dә oxuduq. Bu millәt nәsә çox әcaib-qәraib bir millәtdi. Baş açmaq olmur. Amma yadlarına düşmәdi ki, bir az әvvәl demişdilәr: “Bu anektoddan da sovet qoxusu gәlir”. Hә bunu yadlarına salsaydılar, işlәri lap düyünә düşәrdi. O әhvalatı bu günә tәtbiq elәsәlәr nә olardı. Bunun altından qalxa bilmәyәcәkdilәr. Odur ki, çox dәrinә getmәyib bir “Sona bülbüllәri” qoşdular vә Qәdiri oxuda-oxuda getdilәr öz keflәrinә... O

anektodbaz razvedçiki dә göndәrdilәr bu tәrәfә ki, svejilәrindәn toplayıb gәtirsin.

**P.S.** ***Davamı ola bilәr. Әgәr bu razvedçik hәlә dә bu tәrәflәrә gәlib-gedә bilirsә, әgәr bizdә hәlә dә anektod istehsal oluna bilirsә, әgәr bu ürәtilәn anektodlar çayçılarda dişlәmә qәndlә hәlә dә hortdadılırsa...***



***Sәdrәddin DAŞKÖRPÜLÜ***